# Alimin elmi irsi

***Bu günlərdə əməkdar elm xadimi, əməkdar həkim, tibb elmləri doktoru, professor, "Şöhrət" ordenli məşhur cərrah Bəybala Abbasovun anadan olmasının 100 illiyinə həsr olunmuş "Seçilmiş elmi əsərləri" adlı kitab işıq üzü görüb. "Kövsər" nəşriyyatı tərəfindən Azərbaycan, rus, ingilis dillərində dərc olunan 659 səhifəlik kitabda görkəmli pedaqoq, cərrahın elmi fəaliyyətindən, ixtiralarından bəhs edilir.***

Azərbaycan tibb elmində və ictimai fikir tarixində müstəsna rol oynamış, "Zərgər əl" adlandırılan professor Bəybala Abbasov yaşadığı 89 il ərzində 160-a yaxın elmi əsərin, 3 dərsliyin, 2 "Umumi cərrahlıq" kitabının, 4 metodiki tövsiyə, 4 monoqrafiya, 20-dən artıq səmərələşdirici təklifin müəllifidir. O, ilk dəfə olaraq, Azərbaycanda reanimasiya, ürək-damar və təcili cərrahiyə kurcunu təşkil etmişdir. Eləcə də o, ilk dəfə olaraq qara ciyəri rezeksiya (kəsib) edib, ürək əməliyyatı aparıb. O, ürək damar cərrahlığı, mikrocərrahlıq, döş qəfəsi, abdominal, ümümi cərrahlıq və s. sahədə 7000-dən artıq cərrahiyyə əməliyyatı həyata keçirib. O, neçə-neçə gənc alimin, cərrahın yetişməsində müstəsna xidmətlər göstərmişdir.

Kitabda alim-cərrahın elmi əsərləri ilə yanaşı, gökəmli şəxsiyyətlərin B.Abbasovun haqqında söylədikləri dəyərli fikirlər də yer almışdır.

Alimin bu kitabı istər respublikada, istərsə də xaricdə alimlərin, cərrahların araşdırmaları üçün istinad edəcəkləri, öyrənəcəkləri çox dəyərli bir mənbədir.

Yubiley ərəfəsində işıq üzü görən bu kitab Bəybalasevərlərin, tibbi ictimaiyyətin dərin marağına səbəb olacaqdır.

B.Abbasovu Akademik Mürsəddulla Mirqasımovun sözləri ilə belə səciyyələndirmək olar. "Bəybala Abbasov gənc həkimlər arasında xüsusilə fərqlənir. Onun zəngin bilik və bacarığı, çevikliyi gələcəkdə peşəkar, püxtələşmiş, savadlı cərrah olmasından xəbər verir. Sanki, o, anadan cərrah doğulub. Mən onun gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, o, məşhur cərrah olacaq, xalqına ləyaqətlə xidmət göstərəcəkdir. Ona bu çətin və şərəfli yolda uğurlar arzulayıram.." Görkəmli akademikin söylədikləri sonradan gerçək oldu.

Hər iki alimin ruhları şad olsun!

**Əfqan Əsgərzadə,**
**əməkdar həkim**

Yeni təfəkkür.- 2022- ci il.- 23 dekabr.- S. 4.